AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# 2023-CÜ İL ƏRZİNDƏ ƏSAS MƏQSƏD VƏ FUNKSİYALARIN HƏYATA KEÇİRİLMƏSİ BARƏDƏ

# H E S A B A T




2023

## Mündəricat


Giriş ........................................................................................ 3

1. Məqsədlərin həyata keçirilməsi ........................................................ 3

*1.1. Mərkəzi Bankın qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsi........................................................................................ 3*

*1.2. Əsas məqsədinə xələl gətirmədən maliyyə bazarlarını tənzimləyən qanunlarla müəyyən edilmiş səlahiyyətlər daxilində maliyyə sabitliyini təmin edilməsi ........................................ 4*

2. Funksiyaların həyata keçirilməsi ........................................................ 5

*2.1. Dövlətin pul və məzənnə siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi ............ 5*

*2.2. Nağd pul dövriyyəsinin təşkil edilməsi, pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılmasının həyata keçirilməsi .................................................................... 7*

*2.3. Manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsinin mütəmadi müəyyən edilməsi və elan edilməsi........................................................................................ 8*

*2.4. Mərkəzi Bankın sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi........................................................................................ 8*

*2.5. Beynəlxalq standart və metodologiyalara uyğun olaraq monetar, maliyyə bazarları və ödəniş sistemləri üzrə statistikanın, ölkənin tədiyə balansının, beynəlxalq investisiya balansının və icmal xarici borc statistikasının tərtib edilməsi, məlumatların ümumiləşdirilməsi və yayılmasının təmin edilməsi, habelə ölkənin tədiyə balansının proqnozlaşdırılmasında iştirak edilməsi ..... 9*

*2.6. Maliyyə bazarlarının fəaliyyətinin sabitliyi və dayanıqlığının təmin edilməsi, maliyyə bazarlarında tənzimləmə və nəzarətin, o cümlədən makroprudensial tənzimləmə və nəzarətin həyata keçirilməsi ........................................................................................ 11*

*2.7. Ödəniş sistemlərinin sabit, təhlükəsiz və effektiv fəaliyyətinin təmin edilməsi, inkişafına dəstək verilməsi........................................................................................ 16*

*2.8. Maliyyə bazarlarında istehlakçıların və investorların hüquqlarının qorunması üçün tədbirlərin görülməsi və maliyyə bazarları sahəsində maarifləndirmə işlərinin aparılması........... 17*

*2.9. Valyuta tənziminin və nəzarətinin həyata keçirilməsi ................................................ 19*

*2.10. Əmanətlərin sığortalanması sahəsində nəzarət sisteminin fəaliyyətinin təmin edilməsi 20*

3. Mərkəzi Bankın fəaliyyətinin maliyyə nəticələri .................................. 20

## Giriş

Azərbaycan Respublikası Mərkəzi Bankı 2023-cü ildə öz mandatına uyğun funksiyaların icrasını təmin etmiş, ölkədə makroiqtisadi və maliyyə sabitliyinin qorunmasına yönəldilmiş siyasət həyata keçirmişdir.

Hesabat ilində Mərkəzi Bankın pul siyasəti “Azərbaycan Respublikası Mərkəzi Bankının 2023-cü il üçün pul siyasətinin əsas istiqamətləri barədə Bəyanatı”na uyğun olaraq reallaşdırılmışdır. Mərkəzi Bankın fəaliyyət mühiti qlobal iqtisadiyyatın perspektivləri ilə bağlı qeyri-müəyyənliklərlə səciyyəvi olmuşdur ki, bu da əsasən geosiyasi gərginliyin artması ilə əlaqədar idi. Qlobal enerji daşıyıcıları bazarında konyunkturun əlverişli qalması və ölkənin qeyri-neft ixrac potensialının artması tədiyə balansına, valyuta bazarında tarazlığa və iqtisadi aktivliyə müsbət təsir göstərmişdir. Digər tərəfdən ticarət tərəfdaşı olan ölkələrdə inflyasiyanın dinamikası Azərbaycanda da inflyasiya proseslərinə təsir göstərmişdir.

İnflyasiyanın daxili və xarici mühitində müşahidə olunan riskləri nəzərə alaraq Mərkəzi Bank monetar şərait vasitəsilə inflyasiya proseslərini idarə etməyə çalışmışdır. Pul siyasətinə dair qərarlar faktiki və proqnozlaşdırılan inflyasiyanın dinamikası, inflyasiya gözləntiləri, eləcə də valyuta bazarının vəziyyəti nəzərə alınmaqla qəbul edilmiş, faiz dəhlizinin parametrlərinə müvafiq dəyişikliklər edilmişdir. Strateji çağırışlar nəzərə alınmaqla pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi prosesi də davam etdirilmişdir.

2023-cü ildə Mərkəzi Bankın maliyyə sabitliyi siyasətinin əsas prioritetlərini maliyyə-bank sisteminə etimadın qorunması, risklərin minimallaşdırılması, maliyyə sektorunda idarəetmə potensialının və şoklara qarşı dayanıqlığın artırılması təşkil etmişdir. Dövr ərzində real sektorun maliyyə resurslarına çıxışının genişləndirilməsi istiqamətində işlər davam etdirilmişdir. Biznesin kreditləşməsi və qiymətli kağızlar bazarında müşahidə olunan dinamika iqtisadi artımın maliyyələşmə imkanlarını genişləndirmiş, maliyyə sektorunun dərinliyi daha da yüksəlmişdir. Nağdsız ödənişlərin genişlənməsi maliyyə sektorunun resurs bazasını artırmışdır.

## 1. Məqsədlərin həyata keçirilməsi

*Mərkəzi Bankın fəaliyyətinin əsas məqsədi qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsi və əsas məqsədinə xələl gətirmədən maliyyə bazarlarını tənzimləyən qanunlarla müəyyən edilmiş səlahiyyətləri daxilində maliyyə sabitliyinin təmin edilməsindən ibarətdir.*

### 1.1. Mərkəzi Bankın qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsi

*2023-cü ildə ölkədə inflyasiya tempinin azalması müşahidə edilmişdir. Bu, qlobal miqyasda inflyasiya təzyiqlərinin azalması və eyni zamanda həyata keçirilən antiinflyasiya tədbirləri sayəsində mümkün olmuşdur.*

Azərbaycanda inflyasiya I rübdən sonra azalmağa başlamışdır. Rəsmi statistikaya görə 2023-cü ilin dekabr ayında 12 aylıq inflyasiya 2.1% təşkil etməklə hədəf (4±2%) diapazonunun aşağı hissəsində formalaşmışdır. Tənzimlənən qiymətlərin, həmçinin mövsümi xarakterli məhsulların qiymət dəyişimi nəzərə alınmadan hesablanan baza inflyasiyasının tempi də azalaraq dekabrda 2.3% olmuşdur. İnflyasiyanın bütün komponentləri üzrə azalma meyli müşahidə edilmişdir. Hesabat ilinin

sonunda illik ərzaq inflyasiyası 0.8%-ə enmişdir. Qeyri-ərzaq məhsulları üzrə qiymətlər illik 2.7% artmış, xidmətlər son 1 ildə 3.7% bahalaşmışdır.

Təhlillər göstərir ki, baza effektindən əlavə illik inflyasiya xarici və daxili amillərin, o cümlədən həyata keçirilən antiinflyasiya siyasətinin təsirindən azalmışdır. Ticarət tərəfdaşları üzrə orta çəkili inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin enməsi, beynəlxalq yükdaşıma xərclərinin pandemiyadan əvvəlki səviyyələrə qayıtması inflyasiyaya azaldıcı təsir etmişdir. Profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması, manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri, qəbul edilmiş pul siyasəti qərarları inflyasiya təzyiqlərini yumşaltmışdır. O cümlədən, faiz dəhlizi parametrlərinin makroiqtisadi vəziyyətə uyğun dəyişdirilməsi, pul siyasəti alətlərinin adekvat tətbiqi və makroprudensial tələblərdə edilən dəyişikliklər məcmu tələbin izafi artımını məhdudlaşdırmışdır.

Valyuta bazarında tarazlıq inflyasiya idxalının məhdudlaşmasında xüsusi rol oynamışdır. Bəzi ticarət tərəfdaşlarında məzənnənin yüksək dəyişkənliyinə baxmayaraq milli valyuta öz sabitliyini qoruyub saxlamışdır.

## 1.2. Əsas məqsədinə xələl gətirmədən maliyyə bazarlarını tənzimləyən qanunlarla müəyyən edilmiş səlahiyyətlər daxilində maliyyə sabitliyini təmin edilməsi

*2023-cü il ərzində görülmüş tədbirlər, həyata keçirilmiş siyasət maliyyə sisteminin kənar şoklara dayanıqlığını artırmış, sektorun maliyyə sabitliyini gücləndirmişdir.*

Hesabat dövründə Mərkəzi Bank tərəfindən həyata keçirilən prudensial siyasət bank sektorunun maliyyə dayanıqlığının güclənməsinə yönəlmişdir. Dövr ərzində bank sektorunun kapitallaşması tədbirləri, dayanıqlığını itirmiş iki bankın sektordan kənarlaşdırılması, həssaslıq zonalarını formalaşdıran risklər üzrə prudensial tələblərin gücləndirilməsi, sektor ilə intensiv dialoqun aparılması və korporativ idarəetmənin təkmilləşdirilməsinə yönəlmiş təşəbbüslər maliyyə sabitliyinə müsbət təsir edən amillər olmuşdur.

İl ərzində bank sektorunda kredit portfelinin bütün seqmentləri üzrə artım müşahidə edilmişdir. Kredit portfelinin  artım dinamikası fonunda requlyativ tənzimləmə çərçivəsinə edilən dəyişikliklər və kredit təşkilatlarının riskləri effektiv idarə etməsi sektorun kredit risklərinin azalmasını şərtləndirmişdir. 2023-cü ilin sonuna olan məlumatlara əsasən bank sisteminin kapital adekvatlığı əmsalı 17.5% təşkil etmişdir ki, bu da minimum requlyativ tələbi 1.7 dəfə üstələmişdir. Eyni zamanda, sektorun ani likvidlik əmsalı (52.2%) təyin edilmiş minimum normativdən 1.7 dəfə çoxdur. Bank sektorunun gəlirliliyində də müsbət trend müşahidə edilmiş, ötən illə müqayisədə bank sektorunun xalis mənfəəti 18% (162 mln. manat) artaraq 1.1 mlrd. manata çatmışdır. Dedollarlaşma trendi hesabat ili ərzində də davam etmişdir.

Hesabat ili ərzində sığorta sektorunun maliyyə göstəricilərinin yaxşılaşması ilə yanaşı sektorun nüfuzetmə səviyyəsi və dərinliyi də artmışdır. 2023-cü ilin sonuna olan məlumatlara əsasən sığorta haqları əvvəlki illə müqayisədə 26% artaraq 1223 mln. manat, sığorta ödənişləri isə 36% artaraq 587 mln. manat təşkil etmişdir. Sektorun mənfəətliyi artmış, kapital göstəriciləri isə prudensial tələbləri üstələməkdə davam etmişdir.

Kapital bazarında qiymətli kağızlar dövriyyəsi repo/əks-repo əməliyyatlarının artması fonunda genişlənmişdir. Sektorun mənfəətliyinin artması və balansının genişlənməsi şəraitində maliyyə göstəriciləri yaxşılaşmış, kapital mövqeyi komfort zonada olmuşdur.

## 2. Funksiyaların həyata keçirilməsi

*Başlıca məqsədlərə nail olmaq üçün Mərkəzi Bank qanunvericiliyə müvafiq olaraq dövlətin pul və məzənnə siyasətini müəyyən etmək və həyata keçirmək, nağd pul dövriyyəsini təşkil etmək, manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən və elan etmək, valyuta tənzimini və nəzarətini həyata keçirmək, hesabat tədiyə balansını tərtib etmək və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirak etmək, sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlamaq və idarə etmək, maliyyə bazarlarının fəaliyyətinin sabitliyini və dayanıqlığını təmin etmək, ölkənin icmal xarici borc statistikasını və beynəlxalq investisiya balansını tərtib etmək və digər funksiyaların həyata keçirilməsini təmin etmək istiqamətində zəruri işlər görmüşdür.*

### 2.1. Dövlətin pul və məzənnə siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi

*2023-cü ildə Mərkəzi Bank özünün pul siyasətini inflyasiyanın hədəf intervalına qaytarılmasına yönəltmişdir. Pul siyasəti alətləri bank sisteminin likvidlik mövqeyi və risklər balansı nəzərə alınmaqla tətbiq edilmişdir. Hesabat dövründə inflyasiyaya təsir imkanlarının artırılması istiqamətində islahatlar davam etdirilmişdir*.

2023-cü ildə Mərkəzi Bankın pul siyasətinə dair qərarları qlobal və ölkə iqtisadiyyatında gedən proseslər, yenilənmiş proqnozlar nəzərə alınmaqla qəbul edilmişdir. Dövr ərzində faiz dəhlizi parametrləri 8 dəfə müzakirə edilmişdir. İdarə Heyətinin pul siyasətinə həsr edilmiş ilk 3 iclasında uçot dərəcəsinin 8.25%-dən 9%-ə, faiz dəhlizinin yuxarı həddinin 9.25%-dən 10%-ə, faiz dəhlizinin aşağı həddinin isə 6.25%-dən 7.5%-ə qaldırılması ilə bağlı qərarlar qəbul edilmişdir. Faiz dərəcələrinin artırılmasında məqsəd məcmu tələbin izafi artımının məhdudlaşdırılması olmuşdur. Növbəti 3 iclasda faktiki və proqnozlaşdırılan inflyasiyanın azalma tempi nəzərə alınmaqla pul siyasətinin sərtləşdirilməsinə fasilə verilmiş, son 2 iclasda isə faiz dərəcələrinin azaldılması qərarı qəbul edilmişdir. 2023-cü ilin sonuna faiz dəhlizinin yuxarı həddi 9%, uçot dərəcəsi 8%, faiz dəhlizinin aşağı həddi 6.5% təşkil etmişdir. Pul siyasətinin yumşaldılmasına başlanılması həm də mövcud məzənnə rejimi çərçivəsində manatın məzənnəsi üzərində möhkəmlənmə təzyiqlərinin azaldılmasına xidmət edir.

Hesabat ilində pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülmüşdür. İl ərzində pul siyasəti hədəflərinə nail olmaq üçün açıq bazar əməliyyatları və daimi imkan alətlərindən aktiv istifadə olunmuşdur. Banklar tərəfindən daimi imkan aləti olan günlük depozit əməliyyatlarına maraq yüksək olmuşdur. Hesabat ilinin fevral ayının sonundan sterilizasiya yönümlü daimi imkan aləti üzrə tətbiq edilən kvota məbləği artırılmış, avqustun 15-dən isə ləğv edilmişdir. Açıq bazar əməliyyatları qismində sterilizasiya məqsədilə 28 günlük (1 ay), 84 günlük (3 ay), 168 günlük (6 ay) və 252 günlük (9 ay) notların yerləşdirilməsi üzrə müntəzəm hərraclar davam etdirilmişdir. Not hərraclarında rəqabət mühitini optimallaşdırmaq, investor inamını artırmaq məqsədilə Mərkəzi Bankın notlarının yerləşdirilməsi şərtlərinə bir sıra dəyişikliklər edilmişdir. Ümumilikdə, Mərkəzi Bankın il ərzində 125 müxtəlif müddətli not hərracı baş tutmuşdur.

Alternativ pul siyasəti lövbərinin formalaşdırılması istiqamətində görülmüş tədbirlər çərçivəsində Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə “Təminatsız Banklararası Pul Bazarında Bençmark Dərəcəsi

(AZIR - Azerbaijan Interbank Rate) üzrə indekslərin hesablanması və açıqlanması Qaydaları" təsdiq edilmişdir. May ayından başlayaraq Blumberq platformasında banklar arasında milli valyutada bağlanan təminatsız əqdlərin orta çəkili faiz dərəcəsi (AZIR), həcmi və sayı barədə məlumatlar gündəlik əsasda Mərkəzi Bankın internet səhifəsində yayımlanır. Eyni zamanda Bakı Fond Birjası tərəfindən "Repo bazarında bağlanılan əqdlər üzrə indekslərin hesablanması və açıqlanması Qaydaları"na dəyişikliklər təsdiq edilmişdir ki, bu da təminatlı bazarda reprezentativ faiz indekslərinin (AINA – Azn INdex Average) daha yüksək tezliklə yayımlanmasına imkan verir.

İl ərzində pul təklifini daha effektiv tənzimləmək, likvidliyin banklar üzrə təmərküzləşməsini məhdudlaşdırmaq və dedollarlaşma meyillərini stimullaşdırmaq üçün məcburi ehtiyat normalarının səviyyəsinə və diferensiallaşma qaydasına bir neçə mərhələdə yenidən baxılmışdır. Bank sektorunda likvidliyin idarə edilməsinə təzyiq yaratmamaq üçün məcburi ehtiyatların diferensiallaşması dərəcəsinin yüksəldilməsi prosesi tədricən həyata keçirilmişdir.

Monetar sferada həyata keçirilən islahatlar banklar tərəfindən likvidliyin daha effektiv idarə olunmasına, banklararası bazardakı aktivliyə və gəlirlilik əyrisinin formalaşmasına müsbət təsir etmişdir. 2023-cü ildə Blumberq platformasında banklar arasında milli valyutada 31.1 mlrd. manat məbləğində 2467 təminatsız əqd bağlanmışdır. Bu dövrdə banklararası REPO bazarında 4.6 mlrd. manat həcmində 1246 əqd bağlanmışdır.

Mərkəzi Bank ilk dəfə olaraq özünün internet səhifəsində həftəlik əsasda dövlət istiqrazları üzrə qiymətləndirilmiş gəlirlilik əyrisinin dərc edilməsinə başlamışdır. 2023-cü il ərzində qiymətləndirilmiş gəlirlilik əyriləri normal qrafiki formaya malik olmuşdur.

Həm təminatsız, həm də təminatlı pul bazarında faizlər il ərzində faiz dəhlizinin dəyişiminə reaksiya vermişdir. Belə ki, 2023-cü ilin sonlarından başlayaraq ilk dəfə pul bazarında orta faizlər Mərkəzi Bankın faiz dəhlizi daxilində formalaşmağa başlamışdır. 2023-cü ilin dekabr ayında banklararası təminatsız pul bazarında 1-3 günlük əməliyyatlar üzrə orta faiz dərəcəsi (1D AZIR) 7.4%, banklararası REPO bazarında 6-8 günlük əməliyyatlar üzrə orta faizlər (1W $AINA_{IB}$) isə 7.8% təşkil etmişdir. Aparılmış təhlillər göstərir ki, müəyyən bank qrupları üzrə banklararası faizlərlə hüquqi şəxslərin manatla depozitləri üzrə faizlər eyni istiqamətdə dəyişir. Bunlar pul siyasəti qərarlarının faiz kanalı ilə ötürücülüyünün yaxşılaşdığını deməyə əsas verir.

Mərkəzi Bankın sterilizasiya əməliyyatları banklararası pul bazarındakı aktivliyi və orta faizlərin tənzimlənməsini dəstəkləməklə yanaşı pul kütləsinin izafi artımını da məhdudlaşdırmışdır. 2023-cü ildə həm manatla pul bazası, həm də manatla geniş pul kütləsi (M2) 19.6% artmışdır. Pul təklifinin artımının başlıca mənbəyi əsasən fiskal sektorun ehtiyacları üçün Mərkəzi Bankın valyuta bazarına alışyönlü müdaxilələri olmuşdur. Mərkəzi Bankın valyuta ehtiyatları 2023-cü ildə 29.1% artaraq 11.6 mlrd.$-a çatmışdır.

2023-cü ildə pul siyasəti qərarlarının verilməsi prosesinə analitik dəstəyi gücləndirmək üçün Mərkəzi Bankda təhlil və proqnozlaşdırma prosesinin təkmilləşdirilməsi davam etdirilmişdir. İl ərzində Mərkəzi Bankda analitik işlər əsasən İdarə Heyətinin 21.12.2022-ci il tarixli qərarı ilə qüvvəyə minən "Proqnozlaşdırma və siyasət təhlil sisteminə dair Metodoloji Rəhbərlik" əsasında təşkil edilmişdir. Qısa və ortamüddətli proqnozlaşdırma üçün istifadə olunan ekonometrik modellər təkmilləşdirilmişdir. İnflyasiya proseslərinin təhlilində rəsmi statistik göstəricilərlə yanaşı Mərkəzi Bank tərəfindən keçirilən

real sektorun monitorinqinin nəticələrindən, eləcə də pərakəndə satış şəbəkələrindən müntəzəm alınan qiymət məlumatlarından da istifadə edilmişdir.

Hesabat ilində Mərkəzi Bankın pul siyasətinin şəffaflıq dərəcəsi daha da artırılmışdır. Mərkəzi Bankın siyasət qərarlarına dair press-relizləri müvafiq analitik şərhlərlə dərc edilmiş, müntəzəm mətbuat konfransları keçirilmişdir. Pul siyasəti icmalı rüblük əsasda ictimaiyyətə açıqlanmışdır. Mərkəzi Bank özünün başlıca makroiqtisadi göstəricilərə (12 aylıq inflyasiya,  əməliyyatlar balansı, ümumi və qeyri-neft ÜDM-in real ifadədə artımı) dair proqnozlarını açıqlamağa başlamışdır. Mərkəzi Bankın fəaliyyəti rəsmi internet səhifəsi və sosial şəbəkələr vasitəsilə mütəmadi işıqlandırılmışdır. Geniş auditoriyaya həm yazılı şəkildə, həm də video formatında bir sıra maarifləndirici və analitik materiallar təqdim edilmişdir. Maliyyə bazarı iştirakçıları və müstəqil iqtisadçı ekspertlərlə müntəzəm görüşlər davam etdirilmişdir. Pul siyasətinin kommunikasiyasında kütləvi informasiya vasitələrinin xüsusi rolunu nəzərə alaraq media nümayəndələri üçün maarifləndirici tədbirlər davam etdirilmişdir.

### 2.2. Nağd pul dövriyyəsinin təşkil edilməsi, pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılmasının həyata keçirilməsi

*2023-cü il ərzində iqtisadiyyatın nağd pula tələbi tam həcmdə, adekvat strukturda və vaxtında ödənilmiş, pul nişanları üzrə zəruri ehtiyatlar yaradılmışdır.*

Hesabat dövründə Mərkəzi Banka dövriyyədən 5.47 mlrd. (495.5 mln. ədəd) manat pul nişanı mədaxil edilmiş, 8.07 mlrd. manat (568.3 mln. ədəd) pul nişanı isə məxaric olunmuşdur. Tədavüldə nağd pul kütləsi 2.6 mlrd. manat (73 mln. ədəd) və ya 17.7% artaraq dövrün sonuna 17.31 mlrd. manat (947 mln. ədəd) təşkil etmişdir.

İqtisadiyyatın tələbinin ödənilməsi məqsədilə Mərkəzi Bank 2023-cü il ərzində zəruri ehtiyatların yaradılmasını təmin etmiş və 547.35 mln. manat (97.87 mln. ədəd) kağız, 3.6 mln. manat (18.7 mln. ədəd) metal pul nişanları istehsal olunaraq ölkəyə gətirilmişdir. Hazırda milli valyuta üzrə ehtiyatlar 12.62 mlrd. manat (582.8 mln. ədəd) təşkil edir.

Mərkəzi Bank tədavüldə pul nişanlarının keyfiyyətinin yüksək səviyyədə saxlanması məqsədilə 2023-cü il ərzində 1.78 mlrd. manat (103 mln. ədəd) yararsız kağız pul nişanlarının yeniləri ilə əvəzlənməsini təmin etmişdir.

2023-cü ildə “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliklərdən irəli gələrək Mərkəzi Bank tərəfindən beynəlxalq təcrübəyə uyğun olaraq milli pul nişanlarının reproduksiyası (bənzədilmiş surətdə hazırlanması) üzrə tələblər müəyyən edilmişdir. Qanuna müvafiq olaraq hazırlanmış “Pul nişanlarının reproduksiyası Qaydası” 3 noyabr 2023-cü il tarixindən ilk dəfə qüvvəyə minmişdir. Pul nişanlarının saxtalaşdırılmasına qarşı mübarizənin təşkili və hüquq mühafizə orqanları ilə koordinasiya diqqət mərkəzində saxlanılmış, 2023-cü il üzrə milli valyutada 521 ədəd (42.8 min manat) saxta pul nişanı, xarici valyutada isə 391 ədəd (57.3 min manat) saxtakarlıq əlamətləri müəyyən edilmiş pul nişanı aşkarlanaraq tədavüldən çıxarılmış və müvafiq tədbirlərin görülməsi üçün hüquq mühafizə orqanlarına təqdim edilmişdir.

Əhalidə olan yararsız pul nişanlarının ekspertizaya qəbul edilməsi və dəyişdirilməsi məqsədilə Mərkəzi Bank tərəfindən Bakı şəhərində və regionlarda yaradılmış nağd pul ofisləri fəaliyyətini davam etdirmişdir. 2023-cü il ərzində əhalidən 4 mln. manat (80 min ədəd) pul nişanı qəbul edilərək dəyişdirilmişdir. Bununla yanaşı, Mərkəzi Bank Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin

anadan olmasının 100 illik yubileyi münasibətilə 10 may 2023-cü il tarixindən etibarən ölkəmizin tarixində ilk dəfə olaraq yüksək əyarlı Azərbaycan qızılından hazırlanmış 1 troy unsiya (31.1 qr.), 1/2 troy unsiya (15.55 qr.), 1/4 troy unsiya (7.78 qr.) və 1/10 troy unsiya (3.11 qr.) çəkilərdə investisiya pul nişanlarını tədavülə buraxmışdır.

Eyni zamanda, Mərkəzi Bank tərəfindən Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik tarixinin əbədiləşdirilməsi məqsədilə yüksək əyarlı Azərbaycan qızılından hazırlanmış 1 kq., 10 troy unsiya (311 qr.), 5 troy unsiya (155.5 qr.) və 1 troy unsiya (31.1 qr.) çəkilərdə yubiley pul nişanları da tədavülə buraxılmışdır. Bu yubiley pul nişanları xüsusi dövlət tədbirləri üçün nəzərdə tutulmuşdur. Qeyd edək ki, dövr ərzində ümumilikdə 2530 ədəd yubiley, xatirə və investisiya pul nişanları satılmışdır. 2023-cü ildə yubiley və xatirə pul nişanlarının Prezidentin İşlər İdarəsinin “Azərsuvenir” MMC vasitəsilə, investisiya pul nişanlarının isə müəyyən edilmiş agent banklar vasitəsilə satışı təşkil edilmişdir.

Eyni zamanda, Mərkəzi Bank tərəfindən nağd pul tədavülünün təşkilində effektivliyin və səmərəliliyin artırılması məqsədilə operator banklar seçilmiş və bir sıra biznes proseslərin autsorsinqi həyata keçirilmişdir.

## 2.3. Manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsinin mütəmadi müəyyən edilməsi və elan edilməsi

*Hesabat ilində tədiyə balansının iri həcmli profisiti valyuta bazarında tarazlığa müsbət təsir etmiş və qiymət sabitliyinin başlıca lövbərini – məzənnə sabitliyini dəstəkləmişdir.*

2023-cü ildə Mərkəzi Bankda Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) valyuta satışlarının həyata keçirilməsi üzrə 96 valyuta hərracı baş tutmuşdur. Bu hərracların 92%-də təklif tələbi üstələmiş və 70 mln. ABŞ dolları məbləğində təklifə qarşı orta tələb 40.4 mln. ABŞ dolları təşkil etmişdir. İl ərzində Mərkəzi Bank tərəfindən valyuta bazarına 2.1 mlrd. ABŞ dolları həcmində alışyönlü valyuta müdaxilələri olmuşdur. Bəzi ticarət tərəfdaşlarında məzənnənin yüksək dəyişkənliyinə baxmayaraq manat öz sabitliyini qoruyub saxlamışdır.

Hesabat ilində manatın ABŞ dollarına nəzərən rəsmi məzənnəsi banklararası əqdlər üzrə orta məzənnə (Blumberq platformasında hərraclar və hərracdankənar əməliyyatlar nəzərə alınmaqla) əsasında müəyyən edilmiş və orta günlük 1.7 manat təşkil etmişdir. Kommersiya banklarının orta hesabla günlük alış məzənnəsi 1 ABŞ dollarına nəzərən 1.6945 manat, satış məzənnəsi isə 1.7020 manat olmuşdur.

Hesabat ilində manatın məzənnəsi digər ticarət tərəfdaşı olan ölkələrin valyutalarına qarşı fərqli istiqamətlərdə dəyişmişdir. İkitərəfli məzənnələrin dinamikası çoxtərəfli məzənnəyə də təsir göstərmişdir. İl ərzində qeyri-neft sektoru üzrə nominal effektiv məzənnənin 19.3% bahalaşması idxal inflyasiyasının əhəmiyyətli bir hissəsini neytrallaşdırmışdır.

## 2.4. Mərkəzi Bankın sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi

*2023-cü ildə Mərkəzi Bankın valyuta ehtiyatları qlobal inflyasiya təzyiqləri ilə mübarizə çərçivəsində aparıcı mərkəzi banklar tərəfindən davam etdirilən sərt pul siyasəti fonunda xarici maliyyə bazarlarında mövcud olan yüksək faiz dərəcələri şəraitində idarə edilmişdir. İnkişaf etmiş ölkələrdə sərt pul siyasətlərinin böhrana səbəb olmadan inflyasiyanı hədəf səviyyələrinə doğru cilovlaması qlobal*

*iqtisadi geriləmə gözləntilərinin il sonuna doğru azalmasına və xarici maliyyə bazarlarında müşahidə olunan yüksək volatilliyin səngiməsinə səbəb olmuşdur. Nəticədə, hesabat ilində xarici maliyyə bazarlarının əksər seqmentləri əvvəlki illərdən fərqli olaraq yüksək gəlirlilik nümayiş etdirmişdir.*

2023-cü ildə Mərkəzi Bankın valyuta ehtiyatlarının idarə edilməsi çərçivəsinin təkmilləşdirilməsi istiqamətində yeni strategiya və qaydalar qəbul edilmişdir. Yeni strategiya və qaydalara uyğun olaraq 2023-cü il üçün Mərkəzi Bankın valyuta ehtiyatlarının idarə edilməsinin əməliyyat investisiya proqramı təsdiq edilmişdir.

2023-cü ilin əməliyyat investisiya proqramına uyğun olaraq Mərkəzi Bankın valyuta ehtiyatları pul siyasətinin dəstəklənməsinə xidmət edən əməliyyat tranşı və gəlirliliyin artırılması məqsədilə saxlanılan investisiya tranşına bölünməklə idarə edilmişdir. Mərkəzi Bankın valyuta ehtiyatları hər bir tranşın və alt-portfellərin məqsədlərinə uyğun olaraq müəyyənləşdirilmiş bençmarklar əsasında, xarici ölkələrin investisiya dərəcəli kredit reytinqinə malik dövlət və kvazidövlət borc öhdəliklərinə investisiya edilmişdir. Valyuta ehtiyatlarının əksər hissəsi daxili idarəetmə çərçivəsində idarə olunsa da, cəlb edilmiş xarici menecerlərlə əməkdaşlıq hesabat dövründə də davam etdirilmişdir. 2023-cü ilin sonuna rəsmi valyuta ehtiyatlarının 88%-ni ABŞ dolları, 4%-ni avro, 2%-ni funt-sterlinq və 6%-ni isə SDR (Beynəlxalq Valyuta Fondunun xüsusi borcalma hüquqları) təşkil etmişdir.

2023-cü ildə xarici maliyyə bazarlarında sabit gəlirli qiymətli kağızlar üçün mövcud əlverişli mühit və nisbi gəlirliliyin artırılması istiqamətində tətbiq edilən portfel strategiyaları nəticəsində Mərkəzi Bankın valyuta aktivlərinin idarə edilməsi üzrə məcmu gəlirlər rekord məbləğdə (466.5 mln. ABŞ dollar) olmuş, investisiya portfelinin gəlirliliyi isə 4.73% təşkil etmişdir. Bütövlükdə, investisiya portfelinin gəlirliliyi alt-portfellər üzrə tətbiq olunan bençmarkların orta çəkili gəlirliliyindən yüksək olmuşdur.

Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları hesabat dövrü ərzində daxili bazardan valyuta alışları, idarəetmədən gəlirlər və məzənnə fərqi hesabına 2617.3 mln. ABŞ dolları və ya 29.1% artaraq 2023-cü ilin sonuna 11.6 mlrd. ABŞ dolları təşkil etmişdir.

## 2.5. Beynəlxalq standart və metodologiyalara uyğun olaraq monetar, maliyyə bazarları və ödəniş sistemləri üzrə statistikanın, ölkənin tədiyə balansının, beynəlxalq investisiya balansının və icmal xarici borc statistikasının tərtib edilməsi, məlumatların ümumiləşdirilməsi və yayılmasının təmin edilməsi, habelə ölkənin tədiyə balansının proqnozlaşdırılmasında iştirak edilməsi

*2023-cü il ərzində monetar, maliyyə bazarları və ödəniş sistemlərinə dair statistikanın müvafiq beynəlxalq standartlar əsasında tərtibi davam etdirilmişdir.*

Monetar statistik məlumatlar, o cümlədən Mərkəzi Bankın analitik balansı, pul-kredit göstəriciləri, pul icmalı, pul aqreqatları və s. göstəricilər beynəlxalq standartlara uyğun tərtib edilərək müvafiq dövlət orqanlarına, beynəlxalq təşkilatlara və AMB-nin rəsmi internet səhifəsi vasitəsilə geniş ictimaiyyətə təqdim edilmişdir. Məlumatların yayımlanması qrafiki çərçivəsində BVF-nin veb-səhifəsinin

Azərbaycana aid bölməsi üçün bank və digər maliyyə təşkilatlarının icmal göstəricilərinin aylıq əsasda təqdim edilməsi təmin olunmuşdur.

Hesabat ili ərzində mövcud monetar statistik məlumatlar müvafiq təsnifatlara və beynəlxalq metodoloji tövsiyələrə uyğun olaraq daha da təkmilləşdirilmişdir. İctimaiyyətə açıqlanan statistik bülleten təkmilləşdirilmiş və məlumatların əhatə dairəsi genişləndirilmişdir. Bülletendə sığorta sektoruna aid bir sıra göstəricilərə dair məlumatlar da əlavə olunmuşdur. “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsindən sonra Mərkəzi Bank tərəfindən ödəniş təşkilatlarının, bank olmayan kredit təşkilatlarının və ödəniş sistemi operatorlarının təqdim etdiyi ödəniş sistemləri statistikasının əhatə dairəsinin genişləndirilməsi istiqamətində işlər davam etdirilir. İnternet bankçılıq, mobil bankçılıq, banklararası kart mərkəzi vasitəsilə aparılmış ödəniş əməliyyatları, ödəniş kartları vasitəsilə ölkə xaricində aparılan əməliyyatlar, ödəniş xidməti şəbəkəsinin iqtisadi rayonlar üzrə statistikası barədə yeni göstəricilər Mərkəzi Bankın aylıq statistik bülletenlərində əks olunaraq geniş ictimaiyyətə təqdim edilmişdir.

*2023-cü ilin 9 ayı ərzində tədiyə balansının müvafiq beynəlxalq standartlar (BPM6) əsasında tərtibi davam etdirilmişdir.* “Beynəlxalq əməliyyatlar üzrə hesabatlılıq sistemi” (ITRS) vasitəsilə aparılan çarpaz yoxlamalar və dəqiqləşmələr tədiyə balansının hesabatlıq və uçot sisteminin daha da təkmilləşdirilməsinə imkan vermişdir. Hesabat ili ərzində ITRS çərçivəsində statistik göstəricilərin dəqiqləşdirilməsi və emal prosesinin təkmilləşdirilməsi məqsədilə bankların maliyyə hesabatları ilə bir sıra çarpaz yoxlamalar tətbiq edilmiş, həmçinin 2023-cü ilin aprel ayından etibarən AMB-nin İdarə Heyətinin 18/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Xarici borc və beynəlxalq investisiyalar haqqında statistik hesabatın tərtibi və təqdim edilməsi haqqında Təlimat”a əsasən hesabatın toplanması prosesinə başlanılmış, əməliyyatların çarpaz yoxlanması və dəqiqləşdirilməsi işləri aparılmışdır.

Bir sıra dövlət qurumlarından və müəssisələrindən (əsasən Maliyyə Nazirliyi və SOCAR) detallı informasiyaların əldə olunması xarici investisiyalara (birbaşa, portfel və digər) və müvafiq faiz ödənişlərinə dair məlumatların dəqiqləşdirilməsinə imkan vermişdir. Eyni zamanda İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə məlumat mübadiləsi çərçivəsində royalti və lisenziya xidmətləri üzrə 2018-2021-ci illəri əhatə edən rüblük göstəricilər dəqiqləşdirilmiş və tədiyə balansının müvafiq maddəsində əks olunaraq Beynəlxalq Valyuta Fonduna təqdim olunmuşdur.

Son makroiqtisadi meyilləri də nəzərə almaqla Mərkəzi Bank 2023-cü ildə tədiyə balansının proqnozlaşdırılması ilə bağlı aidiyyəti orqanlarla müntəzəm məsləhətləşmələr aparmış, bir sıra iri dövlət müəssisələrinə zəruri sorğular göndərmişdir. Ölkənin ortamüddətli sosial-iqtisadi inkişaf proqnozlarının hazırlanması məqsədilə İqtisadiyyat Nazirliyinə tədiyə balansına dair geniş məlumatlar və yekun proqnozlara dair rəsmi rəy təqdim edilmişdir.

*2023-cü ilin 9 ayında icmal xarici borc statistikasının və beynəlxalq investisiyalar balansının məlumatlarının yığılması və ümumiləşdirilməsi davam etdirilmişdir.* Xarici borc statistikası və beynəlxalq investisiya balansı Maliyyə Nazirliyinin, kommersiya banklarının, Dövlət Statistika Komitəsinin, Milli Depozit Mərkəzinin, neft-qaz sektorunda fəaliyyət göstərən müəssisə və təşkilatların məlumatlarına əsasən Mərkəzi Bank tərəfindən formalaşdırılmışdır. Dövlət və dövlət zəmanətli kreditlər, dövlət və korporativ qiymətli kağızlar, debitor və kreditor borclara dair göstəricilərlə yanaşı banklar tərəfindən təqdim olunan məlumatlar da nəzərə alınmaqla ölkənin icmal xarici borc və beynəlxalq investisiya statistikası hazırlanmışdır. Bu statistik icmallar müvafiq dövlət orqanlarına və beynəlxalq təşkilatlara təqdim olunmuşdur.

İcmal xarici borc statistikasının və beynəlxalq investisiya balansı məlumatlarının yığılması, ümumiləşdirilməsi, məlumat bazasının təkmilləşdirilməsi və analitik təhlil imkanlarının genişləndirilməsi məqsədilə AMB-nin İdarə Heyətinin 18/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Xarici borc və beynəlxalq investisiyalar haqqında statistik hesabatın tərtibi və təqdim edilməsi haqqında Təlimat”a uyğun olaraq 2023-cü ilin birinci rübündən başlayaraq statistik məlumatların yığılması prosesi həyata keçirilmişdir.

Eyni zamanda icmal xarici borc statistikasının və beynəlxalq investisiya balansının analitik təhlil imkanlarının artırılması məqsədilə beynəlxalq standart və metodologiyalara uyğun olaraq dövlət və qeyri-dövlət sektoru bölgüsünü özündə ehtiva edən icmal hesabatlar tərtib olunmuşdur. Bu işlər çərçivəsində Maliyyə Nazirliyi tərəfindən yeni formatda təqdim olunan xarici borc məlumatlarının emalı prosesinin təkmilləşdirilməsi məqsədilə avtomatlaşdırma işləri yekunlaşmış və valyutalar üzrə ayrı-ayrılıqda dövlət və dövlət zəmanətli xarici borc statistikası formalaşdırılmışdır.

## 2.6. Maliyyə bazarlarının fəaliyyətinin sabitliyi və dayanıqlığının təmin edilməsi, maliyyə bazarlarında tənzimləmə və nəzarətin, o cümlədən makroprudensial tənzimləmə və nəzarətin həyata keçirilməsi

### *Bank sektoru*

*Mürəkkəb geosiyasi proseslərin yaratdığı qeyri-müəyyənliklər fonunda bank sektoru sabit fəaliyyətini davam etdirmişdir. 2023-cü il ərzində bank sektorunun kapital və likvidlik göstəriciləri normativləri əhəmiyyətli üstələmiş, mənfəətlilik göstəriciləri yaxşılaşmışdır. Makroiqtisadi və maliyyə sabitliyi hədəfləri çərçivəsində kredit portfelinin artımı iqtisadi fəallığa töhfə vermişdir.*

2023-cü ildə nəzarət çərçivəsində bank sektorunun maliyyə dayanıqlığı diqqətdə saxlanmışdır. Bank sektorunda kredit riskləri, xarici valyuta bazarında trendlər və dollarlaşma prosesləri mütəmadi izlənmiş, geosiyasi proseslərin təsiri nəticəsində aktuallığını artırmış hesablaşma kanalları monitorinq edilmiş, bankların cari maliyyə vəziyyəti qiymətləndirilmişdir. Hesabat dövründə 6 bankda hərtərəfli yoxlama, 1 bankda isə tematik yoxlama həyata keçirilmişdir.

2023-cü ildə 2 banka Mərkəzi Bank tərəfindən verilmiş bank lisenziyası ləğv edilmişdir. Mərkəzi Bankın İdarə Heyətinin 16.05.2023-cü il tarixli Qərarı ilə məcmu kapitalının miqdarı banklar üçün müəyyən edilmiş minimum miqdardan az olduğuna, məcmu kapitalının adekvatlıq əmsalı 3 faizdən az olduğuna, habelə cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə görə “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq maddələrinə əsasən “Günay Bank” ASC-nin lisenziyası 17 may 2023-cü il tarixindən etibarən ləğv edilmişdir. “Günay Bank” ASC-nin ölkənin bank sisteminin aktivlərində xüsusi çəkisi 0.6%, kredit portfelində 1%, sektorun öhdəliklərində isə cəmi 0.5% təşkil edirdi. Həmçinin, Mərkəzi Bankın İdarə Heyətinin 18 oktyabr 2023-cü il tarixli Qərarı ilə məcmu kapitalının miqdarı banklar üçün müəyyən edilmiş minimum miqdardan az olduğuna, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olmasına, cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə, habelə bankın daxili idarəetmə və nəzarət prosedurları adekvat olmadığına görə “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq maddələrinə əsasən “Muğan Bank” ASC-nin lisenziyası 19 oktyabr 2023-cü il tarixindən etibarən ləğv edilmişdir. “Muğan Bank” ASC-nin ölkənin bank sisteminin aktivlərində xüsusi çəkisi 1.4%, kredit portfelində 2%, sektorun öhdəliklərində isə cəmi 1.3% təşkil edirdi. Qeyd edilən bankların lisenziyasının ləğvi bank sektorunun maliyyə dayanıqlığı və maliyyə sabitliyinə heç bir təhdid formalaşdırmamışdır.

31.12.2023-cü il tarixinə ölkədə 23 bank, o cümlədən 2 dövlət bankı fəaliyyət göstərmişdir. Fəaliyyətdə olan banklardan 9 bankın kapitalının strukturunda xarici kapital iştirak edir. Bankların xidmət şəbəkəsi 475 filial, 96 şöbə (mübadilə şöbələri daxil olmaqla), 3040 ATM, habelə 23569 işçi vasitəsilə təmin edilir. Hesabat dövründə bank sektorunun məcmu kapitalı 8% (417 mln. manat) artaraq 5.6 mlrd. manat təşkil etmişdir. Bank sektorunun kapital adekvatlığı 17.5% olmaqla minimum requlyativ tələbi (sistem əhəmiyyətli banklar üzrə 12%, digər banklar üzrə 10%) təxminən 1.7 dəfə üstələmişdir. 2023-cü il ərzində bank sektorunun xalis mənfəəti əvvəlki illə müqayisədə 18% (162 mln. manat) artaraq 1.1 mlrd. manat təşkil etmişdir.

2023-cü ildə bank sektorunun kredit aktivliyi müşahidə olunmuşdur. Bankların kredit portfeli il ərzində 18.3% (3.6 mlrd. manat) artaraq 23.2 mlrd. manat təşkil etmişdir. Bankların istehlak portfeli 20.6%, ipoteka portfeli 21.6%, biznes portfeli 16.2% artmışdır. 31.12.2023-cü il tarixinə biznes kreditləri cəmi kredit portfelinin 54.4%-ni təşkil etmişdir. Qeyd edək ki, 2022-ci il ərzində bankların kredit portfeli 17.6% (2.9 mlrd. manat), 2021-ci ilin müvafiq dövründə isə 17.7% (2.5 mlrd. manat) artmışdır.

Azərbaycan Kredit Bürosuna (Büro) müraciətlərdə aktivlik davam etmişdir. Büroya fəaliyyətə başladığı dövrdən 31 dekabr 2023-cü il tarixinədək daxil olan ümumi sorğu sayı 172.1 mln. (o cümlədən toplu sorğu sayı 139.6 mln.), skorinq sorğularının sayı isə 5.3 mln. ədədə çatmışdır. 2023-cü il ərzində Büroya daxil olan ümumi sorğu sayı 53.5 mln. (o cümlədən, toplu sorğu sayı 41 mln.), skorinq sorğularının sayı isə 0.7 mln. ədəd olmuşdur.

Bank sektorunun likvid aktivləri 13.2 mlrd. manat olmaqla bank sektorunun cəmi aktivlərinin 27%-ni təşkil etmişdir. Sektorun ani likvidlik əmsalı 52% olmaqla minimum requlyativ tələbi (min. 30%) 1.7 dəfədən çox üstələyir. 2023-cü ildə bank sektorunun cəmi öhdəlikləri 4.1% (1.7 mlrd. manat) artaraq 43.1 mlrd. manat təşkil etmişdir. Depozitlər cəmi öhdəliklərin 80%-i həcmindədir ki, bunun da 12.6 mlrd. manatı əhalinin (sahibkarlıqla məşğul olan fiziki şəxslər istisna olmaqla) əmanətləridir. 2023-cü ildə əhalinin əmanətləri 9.6% artmışdır (milli valyutada 20.2% artım, xarici valyutada 6.5% azalma).

Əmanət və kredit portfeli üzrə dedollarlaşma trendləri davam etmişdir. 2023-cü il ərzində dollarlaşma əhalinin əmanətləri üzrə 5.8 faiz bəndi azalaraq 34%, hüquqi şəxslərin depozitləri (maliyyə sektorunun depozitləri istisna olmaqla) üzrə 9.8 faiz bəndi azalaraq 41%, kredit portfeli üzrə isə 1.2 faiz bəndi azalaraq 18.8% təşkil etmişdir.

2023-cü ildə bank sektorunun müddətli xarici borcu 81% artaraq 501.7 mln. ABŞ dolları olmuşdur. Bununla belə, bank sektorunun öhdəliklərində xarici borcun payı aşağı olaraq qalmaqdadır. 31.12.2023-cü il tarixinə xarici borc bankların ümumi öhdəliklərinin cəmi 2%-ni təşkil etmişdir.

2023-cü il ərzində Mərkəzi Bank tərəfindən bank sektoru üzrə requlyativ çərçivənin təkmilləşdirilməsi sahəsində müvafiq tədbirlər görülmüşdür. Mövcud requlyativ çərçivənin qabaqcıl beynəlxalq standartlarla uyğunlaşdırılması istiqamətində likvidlik riskinin idarə edilməsi istiqamətində requlyativ çərçivə yenilənmişdir. Yeni qəbul edilmiş requlyativ qaydaya əsasən, bank nəzarəti üzrə beynəlxalq standartları müəyyən edən Bazel Komitəsinin yanaşmasına uyğun hazırlanmış bank müştərilərinin davranışı ilə əlaqədar tarixi məlumatlara əsaslanan *likvidliyin örtülmə əmsalı* (LCR əmsalı) normativinin məcmu və xarici valyuta üzrə tətbiqinə başlanılmışdır. Əmsalın məqsədi bankın öz fəaliyyətini fasiləsiz davam etdirməsi, o cümlədən öhdəliklərin tam həcmdə və vaxtında icra edilməsi məqsədilə qısa müddətli dövrdə (30 gün) stress şəraitində likvidlik üzrə dayanıqlığın təmin edilməsidir.

*Banklarda korporativ idarəetmənin gücləndirilməsi* məqsədilə bu sahədə mütərəqqi beynəlxalq təcrübələr araşdırılaraq “Banklarda korporativ idarəetmə Standartları” yenidən işlənmişdir. Yeni standartlarda bankların müşahidə və idarəetmə funksiyaları arasında sərhədlərin optimallaşdırılması, müşahidə orqanlarının gücləndirilmiş səlahiyyətləri, müşahidə orqanlarının tərkibinə dair tələblərin müəyyən edilməsi (o cümlədən Müşahidə Şurasının müstəqil üzvünün təyin edilməsi, müstəqil üzvünün müstəqilliyi meyarlarının müəyyən edilməsi və s.), risklərin idarə edilməsi, daxili nəzarət, daxili audit və komplayens funksiyalarının təkmilləşdirilməsi, müstəqil kənar ekspertlərin cəlb edilməsi, mükafatlandırma sistemində risk-əsaslı yanaşmanın tətbiqi və digər məsələlər öz əksini tapmışdır.

Banklar tərəfindən *real sektorun kreditləşməsinin stimullaşdırılması* çərçivəsində kənd təsərrüfatının maliyyələşdirilməsində bankların rolunun artırılması məqsədilə Mərkəzi Bank tərəfindən kənd təsərrüfatı kreditləri (KT kreditlər) üzrə diferensial prudensial tələblərin müəyyən edilməsi üçün bir neçə requlyativ qayda yenidən işlənilmişdir. Qaydalara dəyişikliklərdə KT kreditlərinin xüsusiyyətləri, bu fəaliyyət sahəsinə xas risklər nəzərə alınmaqla KT kreditlərinin təsnifləşdirilməsi, ehtiyat normalarının tətbiqi, restrukturizasiya halları, risk dərəcələri, əlavə anderraytinq tələbləri əhatə edilmişdir.

Həmçinin qüvvəyə olan müvafiq normativ xarakterli aktlarda mövcud requlyativ çərçivənin təkmilləşdirilməsi çərçivəsində restrukturizasiya olunmuş kreditlərə, eləcə də layihə maliyyələşdirilməsi kreditlərinə dair tələblər dəqiqləşdirilmişdir. Belə ki, gəlir mənbəyini (iş yerini) müvəqqəti itirmiş borcalanların kreditləri üzrə xüsusi təsnifləşdirmə tələbləri müəyyən etməklə restrukturizasiya imkanları yaradılmış, layihə maliyyələşdirilməsi kreditləri isə tam təminatlı kreditlər hesab edilmiş və təminatsız kreditlər üzrə konsentrasiya limitindən istisna edilmişdir. Habelə Mərkəzi Bankın müvafiq requlyativ qaydalarına *ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması* istiqamətində edilmiş növbəti dəyişikliklərə əsasən istehsal ili üzrə müvafiq meyarlara cavab verən elektrik və hibrid avtomobillərin alınmasına verilmiş kreditlər üzrə borcalanın yüksək borcun gəlirə nisbəti əmsalı ilə bağlı əlavə ehtiyatlanma tələbindən istisna edilmişdir.

### *Sığorta sektoru*

2023-cü il üzrə sığorta sektorunun fəaliyyəti 17 sığortaçı, 1 təkrarsığortaçı, 1 müştərək sığortaçı (“Aqrar Sığorta Müştərək Sığorta Şirkəti” ASC), 24 sığorta brokeri və 481 sığorta agenti vasitəsilə təmin edilmişdir. Hesabat dövründə planlaşdırılan hərtərəfli yoxlamaların qrafikinə uyğun olaraq Mərkəzi Bank tərəfindən 4 sığortaçı və 1 sığorta agentində növbəti hərtərəfli yoxlamalar keçirilmiş, həmçinin “Günay Sığorta” ASC və “Naxçıvansığorta” ASC-nin könüllü müraciətləri əsasında Mərkəzi Bankın İdarə Heyətinin qərarları ilə sığorta fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş lisenziyaları ləğv edilmişdir. Ləğvetmə prosesi zamanı sığortalıların və kreditorların hüquqlarının qorunması məqsədilə nəzarət tədbirləri mütəmadi həyata keçirilir.

2023-cü il üzrə sığorta haqları əvvəlki illə müqayisədə 26% artaraq 1223 mln. manat, sığorta ödənişləri isə 36% artaraq 587 mln. manat təşkil etmişdir. Həyat və qeyri-həyat sığorta şirkətləri üzrə sığorta haqlarında artım eyni olmaqla 26% təşkil etmişdir.

Sığorta sektoru üzrə beynəlxalq qanunvericiliyə və sığorta prinsiplərinə uyğun olaraq sığortaçıların fəaliyyətinin təkmilləşdirilməsi, sığorta sahəsində risk əsaslı nəzarətin təmin edilməsi, sığorta sektorunun maliyyə dayanıqlılığına nəzarətin təkmilləşdirilməsi və s. istiqamətdə dəyişiklikləri

nəzərdə tutan sığorta qanunvericiliyinə düzəliş layihəsi 6 iyul 2023-cü il tarixdə Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar iclasında qəbul edilmişdir. Bununla yanaşı hesabat dövrü ərzində risk əsaslı tənzimləmə və nəzarətə keçid ilə bağlı layihənin icrası davam etdirilmiş, “Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qayda”, “Aktuari rəyinin məzmunu, forması və təqdim edilməsi Qaydası”, “Risklərin xarici sığortaçılarda təkrarsığortalanması hədləri və tələblərinin, habelə sığortaçının və təkrarsığortaçının təkrarsığorta əməliyyatları üzrə siyasətinə və katastrofik risklərin təkrarsığortalanmasına dair tələblərin müəyyən edilməsi Qaydası” Mərkəzi Bankın İdarə Heyətinin müvafiq qərarları ilə təsdiq edilmişdir.

Sığorta xidmətlərinin rəqəmsallaşması Mərkəzi Bankın fəaliyyətinin prioritet istiqamətlərindən birini təşkil etmiş və icbari sığorta müqavilələrinin elektron sənəd formasında bağlanılması istiqamətində tədbirlər davam etdirilmişdir. İstehlakçının elektron sənəd formasında olan şəhadətnamələrə çıxış imkanının genişləndirilməsi və rəqəmsallaşmaya keçidi sürətləndirmək məqsədilə 2023-cü ilin yanvar-mart ayları ərzində müvafiq icbari sığorta növləri (daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istisması ilə bağlı mülki məsuliyyətin icbari sığortası və sərnişinlərin icbari fərdi qəza sığortası) üzrə mövcud sığorta şəhadətnamələrinin məzmunu və formasına dair yeni tələblər hazırlanmış və Mərkəzi Bank İdarə Heyətinin 12 aprel 2023-cü il tarixli qərarına əsasən təsdiq edilmişdir.

Əhalinin sığorta sahəsi üzrə maarifləndirilməsi istiqamətində Mərkəzi Bank tərəfindən İcbari Sığorta Bürosu və Azərbaycan Sığortaçılar Assosiasiyası ilə imzalanan Memorandum əsasında hazırlanmış kommunikasiya strategiyasına uyğun olaraq genişmiqyaslı təbliğat və təşviqat işləri aparılmışdır. Vətəndaşların sığorta savadlılığının artırılması çərçivəsində kütləvi informasiya vasitələrində ictimai məlumatlılığın təbliği tədbirləri ilə bərabər, ali təhsil müəssisələrinin tələbələri və şirkət nümayəndələri üçün maarifləndirici təlimlər həyata keçirilmişdir. Həmçinin, Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında müsabiqələr keçirilmişdir. 26.08.2023-10.09.2023-cü il tarixlərində bir neçə regionu əhatə etməklə Azərbaycan Respublikasında ilk sığorta festivalı keçirilmişdir. Mərkəzi Bankın Virtual təhsil platformasında (edu.e-cbar.az) təqdim olunan distant kurslarda uğurlu nəticə göstərmiş şəxslərə sertifikatlar verilmişdir.

Sığorta bazarının kadr potensialının genişləndirilməsi üzrə işlər davam etdirilmiş, hazırda nəzəri və təcrübə hissələrindən ibarət olan Aktuari inkişaf proqramı əsasında tədris davam etdirilir.

### *Kapital bazarları*

*Hesabat ilində qiymətli kağızlar bazarında tənzimləmə və nəzarət proseslərinin səmərəliliyinin artırılması, kapital bazarının hüquqi çərçivəsinin beynəlxalq standartlara uyğunlaşdırılması, əməliyyat infrastrukturunun təkmilləşdirilməsi, həmçinin bazarda tələb və təklifin dəstəklənməsi istiqamətində intensiv tədbirlər həyata keçirilmişdir. Hesabat dövrü ərzində 4 yoxlama təşkil olunmuşdur.*

31 iyul 2023-cü il tarixində “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər qüvvəyə minmişdir. Qanundan irəli gələn dəyişikliklərdə Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlara məxsus qiymətli kağızların buraxılışına dair tələblərin sadələşdirilməsi, Milli Depozit Mərkəzi tərəfindən investisiya fondunun depozitarı funksiyasının və məhdud maliyyə xidmətlərinin həyata keçirilməsi, bankların Mərkəzi Bank tərəfindən müəyyən edilən həcmdə və qaydada investisiya xidmətlərini həyata keçirməsi, həmçinin istiqrazları

kütləvi təklif üsulu ilə yerləşdirilən emitentlərin emissiyanın yekunları haqqında hesabatın təsdiq edilməsi tələbindən azad edilməsi nəzərdə tutulmuşdur. Qanuna edilmiş dəyişikliklərə uyğun olaraq hazırlanan “Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatların investisiya qiymətli kağızlarının emissiyası, kütləvi təklifi və tədavülü Qaydası” 31 oktyabr 2023-cü il tarixindən qüvvəyə minmişdir.

Emitentlərin və investorların kapital bazarına çıxış imkanlarının artırılması istiqamətində iqtisadi və fiskal stimulların müəyyən edilməsi məqsədilə Mərkəzi Bank tərəfindən kapital bazarında stimullaşdırıcı vergi rejiminin yaradılması işləri davam etdirilmişdir. 2023-cü il fevralın 1-dən etibarən 5 il müddətində yalnız kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə müvafiq olaraq ödənilən dividend, diskont və faiz gəlirləri vergidən azad edilmişdir. Eyni zamanda istiqrazlar üzrə faiz vergisinin hesablanması beynəlxalq təcrübəyə uyğun olaraq təkmilləşdirilmişdir.

Yaşıl istiqrazlar üzrə hüquqi çərçivənin formalaşdırılması məqsədilə Mərkəzi Bank tərəfindən hazırlanmış Mülki Məcəlləyə dəyişiklik layihəsinin aidiyyəti dövlət qurumları ilə müzakirəsi davam etdirilmişdir. Eyni zamanda Dünya Bankı ilə birgə yaşıl istiqrazların emissiyası yolu ilə maliyyələşdiriləcək layihələrin əhatə dairəsi, həmin layihələrə dair meyarlar, cəlb edilən vəsaitlərin istifadəsi və s. məsələləri əhatə edəcək müvafiq qaydaların hazırlanması üzrə işlərə başlanılmışdır.

2023-cü il ərzində Mərkəzi Bank İpoteka və Kredit Zəmanət Fondu (İKZF) ilə birgə istiqrazlara zəmanət mexanizmini istifadəyə vermişdir. Bu mexanizmə əsasən İKZF tərəfindən istiqrazlar üzrə emitentlərin öhdəliklərinə təminatın verilməsi nəzərdə tutulur.

Kapital bazarında investorların sığortalanması mexanizminin yaradılması üzrə layihə hazırlanmış və hesabat ilinin iyul ayında İqtisadi Şurada təqdim edilmişdir. Layihənin məqsədi ödəmə qabiliyyətini itirmiş investisiya şirkətinin müştərilərinə sığortanın ödənilməsi və bu üsulla kapital bazarında iştirak edən investorların hüquqlarının müdafiəsinin artırılması, investorların kapital bazarında iştirakının təşviqidir. Hazırda İqtisadi Şuranın protokol tapşırığı əsasında xarici texniki ekspertiza da cəlb edilməklə Əmanətlərin Sığortalanması Fondu ilə birgə layihənin hüquqi çərçivəsi formalaşdırılır.

Kapital bazarının infrastrukturunun təkmilləşdirilməsi və xarici investorların yerli kapital bazarına çıxış imkanlarının artırılması məqsədilə Türkiyənin mərkəzi depozitarının Milli Depozit Mərkəzində nominal saxlayıcı hesabı açılmışdır. Hesabat ilinin birinci yarısında Asiya İnkişaf Bankının dəstəyi ilə Milli Depozit Mərkəzinin əməliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi üzrə layihənin icrasına başlanılmışdır.

Kapital bazarında müasir informasiya sisteminin qurulması məqsədilə həm Bakı Fond Birjası, həm də Milli Depozit Mərkəzi tərəfindən ticarət və depozitar sistemləri üzrə işlər tamamlanmış və 2023-cü ilin 31 mart tarixində istifadəyə verilmişdir. Sistem ticarət və ticarətsonrası əməliyyat mühitinin müasir texniki standartlara uyğun təşkil edilməsinə, proseslərin optimallaşdırılmasına, səmərəliyinin artırılmasına imkan verir.

Hesabat dövründə özəl sektorun kapital bazarından maliyyələşmə təşəbbüslərinin və fond birjasında listinqin təşviq edilməsi işləri davam etdirilmişdir. Bakı Fond Birjası tərəfindən anderraytinq xidməti göstərən investisiya şirkətlərinin mükafatlandırılması davam etdirilmişdir. Potensial emitentlərin və investorların bazar haqqında biliklərinin, bütövlükdə kapital bazarlarında peşəkarlığın artırılması istiqamətdə beynəlxalq maliyyə təşkilatları, Bakı Fond Birjası, KOBİA, Azərbaycan Sahibkarlar

Konfederasiyası, Sahibkarlığın İnkişafı Fondu və investisiya şirkətlərinin iştirakı ilə intensiv maarifləndirmə tədbirləri təşkil edilmişdir.

Hesabat dövründə qiymətli kağızlar bazarında ticarət dövriyyəsinin ümumi həcmi 28.1 mlrd. manat təşkil etmişdir. 2022-ci il ilə müqayisədə korporativ qiymətli kağızlar bazarında 4%, dövlət qiymətli kağızlarında 1%, repo əməliyyatlarının 3.4 dəfə artım qeydə alınmışdır. 2023-cü ildə Bakı Fond Birjasında aparılmış əməliyyatların həcmi 27.3 mlrd. manat təşkil etmiş və korporativ qiymətli kağızların ilkin bazar səhm seqmenti üzrə ticarət həcmində 22% artım olmuşdur. Dövlət qiymətli kağızlar bazarında aparılan əməliyyatların həcmi 8405 mln. manat təşkil etmişdir. Maliyyə Nazirliyi tərəfindən dövlət istiqrazlarının yerləşdirilməsi üzrə 51 hərrac keçirilmiş və 3734 mln. manat məbləğində dövlət istiqrazı Bakı Fond Birjasında yerləşdirilmişdir. Repo əməliyyatlarının ümumi məbləği 17384 mln. manat olmuş, əməliyyatların 80%-i dövlət istiqrazları, 18%-i Mərkəzi Bankın notları ilə aparılmışdır. Dövlət istiqrazları ilə repo əməliyyatlarının həcmində 4 dəfə artım, Mərkəzi Bankın notları ilə repo əməliyyatlarında 2 dəfə artım, korporativ qiymətli kağızlar ilə repo əməliyyatlarının həcmində isə 3 dəfə artım müşahidə edilmişdir. Mərkəzi Bank tərəfindən 10638.7 mln. manat məbləğində səhm və istiqrazların dövlət qeydiyyatı həyata keçirilmiş, korporativ qiymətli kağızların kütləvi təklifi üzrə ümumi məbləği 548.2 mln. manat olan 34 emissiya prospekti və 4 informasiya memorandumu təsdiq edilmişdir.

### 2.7. Ödəniş sistemlərinin sabit, təhlükəsiz və effektiv fəaliyyətinin təmin edilməsi, inkişafına dəstək verilməsi

*Ödəniş sistemlərinin sabit, təhlükəsiz və effektiv fəaliyyətinin təmin edilməsi Mərkəzi Bankın fəaliyyətinin prioritet istiqamətlərindən biri olmuşdur. Qlobal rəqəmsallaşma şəraitində ödəniş sistemlərinin kiber hücumlara qarşı davamlılığının artırılması diqqət mərkəzində saxlanılmışdır.*

Hesabat ilində Milli ödəniş sisteminin əsas komponentləri olan Real vaxt rejimində banklararası hesablaşmalar sistemi (AZIPS), Xırda ödənişlər üzrə hesablaşma klirinq sistemi (XÖHKS) və Ani ödənişlər sistemi (AÖS) vasitəsilə həyata keçirilən ödənişlərin ümumi həcmi 2022-ci il ilə müqayisədə 2.2 dəfə artaraq 766.4 mlrd. manat (ÜDM-in 6.2 misli), ödənişlərin sayı isə 51.4% artaraq 147.7 mln. ədəd olmuşdur.

Hökumət ödəniş portalına (HÖP) inteqrasiya olunmuş qurumlar üzrə 1100-dən çox xidmət üzrə ödənişlərin toplanması təmin olunmuşdur. HÖP üzərindən hesabat dövründə həyata keçirilən əməliyyatların ümumi həcmi 6.9 mlrd. manat təşkil etmiş və bu əməliyyatların 68.7%-i nağdsız formada aparılmışdır. Əməliyyatların ümumi həcmi 2022-ci il ilə müqayisədə 37.4%, o cümlədən nağdsız əməliyyatların həcmi 42.7% artmışdır. Hesabat dövründə banklararası kart mərkəzi üzərindən milli valyutada emal olunan əməliyyatların həcmi 18.9 mlrd. manat, xarici valyutada isə 51.2 mln. dollar və 22.7 mln. avro təşkil etmişdir.

Nağdsız ödənişlərin inkişafı məqsədilə hazırlanmış "Azərbaycan Respublikası Mərkəzi Bankının 2021-2023-cü illər üçün rəqəmsal ödəniş Strategiyası"nın Tədbirlər Planı üzrə müvafiq işlər görülmüşdür. Növbəti strateji dövr üçün Mərkəzi Bank tərəfindən hazırlanmış və 2024-2026-cı illəri əhatə edən "Maliyyə sektorunun inkişaf Strategiyası"nın ödəniş bölməsi üzrə strateji istiqamətlər, görüləcək tədbirlər və əsas fəaliyyət indikatorları müəyyən edilmişdir. Strategiyada innovativ həllərin tətbiqi ilə ödəniş xidmətlərinə əlçatanlığın artırılması, ödəniş bazarında şəffaflıq və rəqabətliliyin gücləndirilməsi, habelə ödəniş xidmətləri üzrə səmərəlilik və təhlükəsizliyin təmin edilməsi məqsədilə

Milli ödəniş sisteminin müasirləşdirilməsi, iştirakçılar üçün əlverişli bazar mühitinin yaradılması və effektiv nəzarət çərçivəsinin formalaşdırılması nəzərdə tutulur.

2023-cü ilin sonuna dövriyyədə olan ödəniş kartlarının sayı 16.9 mln. ədəd, bankomatların sayı 3.1 min ədəd, POS-terminalların sayı isə 86.4 min ədəd təşkil etmişdir. Hesabat ilində ödəniş kartları ilə ölkə daxilində aparılmış nağdsız əməliyyatların həcmi 2 dəfə artaraq 49 mlrd. manat təşkil etmişdir. Ölkədə elektron ticarət vasitəsilə aparılan əməliyyatların sayı 2022-ci il ilə müqayisədə 2.2 dəfə, həcmi isə 2.1 dəfə artmışdır. Ölkə daxilində ödəniş kartları ilə aparılan nağdsız ödənişlərin xüsusi çəkisi 2022-ci il ilə müqayisədə 12.4 faiz bəndi artaraq tarixi maksimuma çatmış və 55.6%-ə bərabər olmuşdur. Hesabat dövründə internet bankçılıq xidmətləri vasitəsilə həyata keçirilən əməliyyatların həcmi 2022-ci il ilə müqayisədə 12%, mobil bankçılıq əməliyyatlarının həcmi isə 2 dəfə artmışdır.

Ödəniş xidmətləri üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi, habelə ödəniş xidməti istifadəçilərinin hüquqi müdafiəsinin gücləndirilməsi məqsədilə hazırlanmış "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanunu 9 noyabr 2023-cü il tarixində qüvvəyə minmişdir. Qanunun tələblərinə uyğun olaraq qayda layihələri hazırlanmış, bazar iştirakçıları ilə müzakirə edilərək təkmilləşdirilmişdir.

Hesabat dövründə rəqəmsal ödənişlərdən istifadənin təşviqi, nağdsız ödənişlər üzrə maarifləndirmə, təbliğat və təşviqat məsələləri də diqqət mərkəzində saxlanılmış, beynəlxalq kart təşkilatları və aidiyyəti qurumlar ilə birlikdə çoxsaylı stimullaşdırıcı və maarifləndirici tədbirlər həyata keçirilmişdir. Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyasının birgə əməkdaşlığı çərçivəsində hazırlanmış "Rəqəmsal ödənişlər sahəsində 2023-cü il üzrə maliyyə savadlılığına dair Fəaliyyət Planı" əsasında ödəniş kartlarından istifadə zamanı müşahidə olunan fırıldaqçılıq halları barədə maarifləndirici video və audioçarxlar hazırlanaraq Mərkəzi Bankın, eləcə də bankların sosial şəbəkə hesablarında, həmçinin televiziya və radio kanallarında davamlı olaraq yayımlanmışdır.

### 2.8. Maliyyə bazarlarında istehlakçıların və investorların hüquqlarının qorunması üçün tədbirlərin görülməsi və maliyyə bazarları sahəsində maarifləndirmə işlərinin aparılması

*2023-ci il ərzində Mərkəzi Banka daxil olmuş müraciətlər əsasında istehlakçıların və investorların hüquqlarının pozulmasının qarşısının alınması və pozulmuş hüquqların bərpasının təmin edilməsi istiqamətində zəruri tədbirlər görülmüş, maliyyə bazarları sahəsində maarifləndirmə işləri davam etdirilmişdir*.

Hesabat dövründə istehlakçı və investorlardan yazılı, qaynar xətt, qəbul və Votsap vasitəsilə ümumilikdə 77509 müraciət daxil olmuşdur. 11984 yazılı müraciətin 67.5%-i (8100 müraciət) bank sektorunu əhatə etmiş, 23.5%-i (2826 müraciət) sığorta sektoruna, 3%-i (360 müraciət) kapital bazarları sektoruna və 6%-i (698 müraciət) isə digər məsələlərə aid olmuşdur. Dövr ərzində "966" qaynar xəttinə daxil olmuş 61713 zəng operativ şəkildə cavablandırılmış, 1613 vətəndaşla görüşlər keçirilmiş, Votsap xidmətinə daxil olan 2199 müraciətə baxılmışdır.

Mərkəzi Bankın regional ehtiyat mərkəzlərində həmçinin, bir neçə şəhərdə vətəndaşların səyyar qəbulu həyata keçirilmişdir. İnvestorların və kapital bazarının digər iştirakçılarının Milli Depozit Mərkəzinə müraciət etmək imkanlarının genişləndirilməsi məqsədilə "966-0" qaynar xətti yaradılmış və bu barədə məlumatlılığın artırılması təmin edilmişdir. Bölgələrdə olan sabit telefon şəbəkələrindən (Naxçıvan MR istisna olmaqla) "966" qaynar xəttinə daxil olan zənglərlə bağlı ödənişlərin Mərkəzi Bank tərəfindən qarşılanmasına dair "Aztelekom" MMC ilə müqavilə bağlanmışdır. Naxçıvan MR-də maliyyə

xidmətləri istehlakçıları üçün yaradılmış “2244” qaynar xətti haqqında məlumatlılığın artırılması istiqamətində tədbirlər görülmüşdür. Mərkəzi Bankın Naxçıvan MR İdarəsində vətəndaşların qəbulu üçün “Qəbul otağı” və maliyyə xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi bölməsi yaradılmışdır.

Vətəndaşların Mərkəzi Bank tərəfindən cavablandırılan yazılı müraciətləri üzrə məmnuniyyət səviyyəsinin ölçülməsi və müvafiq struktur bölmənin fəaliyyətinin dəyərləndirilməsi məqsədi ilə cavab məktublarında qiymətləndirmənin aparılması üçün sorğu imkanı yaradılmışdır. Bununla yanaşı şəffaflığın artırılması məqsədi ilə bank müştərilərinin bank xidmətlərindən istifadəsi üzrə şikayət indeksinin aylıq əsasda Mərkəzi Bankın rəsmi internet səhifəsində açıqlanması qərara alınmışdır. Kağız daşıyıcı vasitəsilə daxil olan müraciətlərdə vətəndaşın mobil nömrəsi qeyd olunduğu halda həmin müraciətlərin qeydiyyatı və cavablandırılması barədə müraciət sahibinə SMS bildiriş göndərilməsinə başlanılmışdır. Mərkəzi Bankın rəsmi internet səhifəsində bir sıra yeniliklər edilərək investorların və emitentlərin istifadəsinə verilmişdir.

Mərkəzi Bankın dəstəyi ilə Mediasiya Şurası ilə Azərbaycan Banklar Assosiasiyası (ABA) və Azərbaycan Mikromaliyələşmə Assosiasiyası (AMFA) arasında memorandum imzalanmışdır. Mərkəzi Bank aidiyyəti təşkilatlarla birgə “Bank mübahisələrinin uğurlu həlli yolları” və “Sığorta mübahisələrinin uğurlu həlli yolları” mövzularında elmi konfrans keçirmişdir. Bankların rəsmi internet səhifələrində müyəssərlik menyusunun yaradılması təmin edilmişdir.

Hesabat dövründə maliyyə savadlılığının artırılması istiqamətində işlər davam etdirilmiş, müxtəlif hədəf qrupları üçün 116 təlim keçirilmişdir. Ənənəvi və onlayn keçirilən təlimlərdə ümumilikdə 1428 nəfər iştirak etmişdir. Eyni zamanda virtual və əyani müsabiqələr təşkil edilmişdir. “Maliyyə sağlamlığı” adlı yay məktəbində bölgələrdən 30 şagirdin iştirakı təmin edilmişdir.

Beynəlxalq Əmanət Günü və Maliyyə Savadlılığı ayı münasibətilə Mastercard beynəlxalq kart təşkilatı ilə birgə “Bankçılıq və rəqəmsal ödənişlər” virtual kursu üzrə məktəblilər arasında, həmçinin ümumtəhsil məktəblərinin müəllimləri arasında Virtual Təhsil Platformasındakı 3 virtual kurs üzrə müsabiqə keçirilmişdir. Müsabiqədə ölkənin 16 şəhər və regionundan 153 şagird, 6 müəllim iştirak etmişdir.

Sığorta sahəsində “Peşəkar kadr potensialının yetişdirilməsi” və “Sığorta savadlılığının artırılması, maarifləndirmə, təbliğat və qarşısıalınmaz tədbirlərinin həyata keçirilməsi” adlı iki böyük layihə, Mərkəzi Bank, Türk Sigorta Enstitüsü Vakfı və Azərbaycan Sığortaçılar Assosiasiyası arasında müvafiq əməkdaşlıq çərçivəsində təşkil edilən aktuari kursları davam etdirilmişdir.

Maliyyə savadlılığı portalının (bizimpullar.az) məzmunu zənginləşdirilmiş, portala il ərzində 26562 ziyarətçi 146529 baxış keçirmişdir. Mərkəzi Bankın Virtual təhsil platformasına (edu.e-cbar.az) yeni kurslar əlavə olunmuş, həmçinin “Vergilər və vergitutma” distant kursu yenilənərək istifadəyə verilmişdir. Platformada təhsilini başa çatdıranlar üçün 1732 sayda yekun imtahan təşkil olunmuş, 1182 sayda müvafiq sertifikat hazırlanıb təqdim edilmişdir. Virtual təhsil platformasına il ərzində 44749 ziyarətçi 1671635 baxış keçirmişdir.

Maliyyə məhsul və xidmətlərinin məlumat axtarış sistemində (infobank.az) müvafiq kateqoriyalar üzrə reyestr yenilənmiş, sistemə il ərzində 13785 ziyarətçi 38438 baxış keçirmişdir. Maliyyə savadlılığı ilə bağlı materiallar sosial şəbəkələrdə mütəmadi olaraq paylaşılmışdır.

## 2.9. Valyuta tənziminin və nəzarətinin həyata keçirilməsi

*Mərkəzi Bank valyuta tənzimi və nəzarəti funksiyasını "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq həyata keçirir və bu sahədə müvafiq normativ xarakterli aktlar qəbul edir. Ölkədə tətbiq olunan valyuta rejimi maliyyə sabitliyinin təmin edilməsinə yönəlmiş kompleks tədbirlər çərçivəsində valyuta bazarının sabitliyinə xidmət edir.*

Hesabat dövrü ərzində valyuta tənzimlənməsi sahəsində görülən işlər əsasən valyuta nəzarətinin effektivliyini artırmaq, qanunsuz valyuta əməliyyatları ilə mübarizəni gücləndirmək, eyni zamanda qüvvədə olan valyuta rejiminin əhali üçün yaratdığı lüzumsuz çətinlikləri aradan qaldırmaq və sahibkarlıq subyektlərinin xarici ticarət sahəsində fəaliyyətini dəstəkləmək məqsədlərinə xidmət etmişdir. Belə ki, valyuta mübadilə əməliyyatlarının şəffaf və təhlükəsiz həyata keçirilməsi, kölgə iqtisadiyyatının qarşısının alınması, valyuta mübadiləsi əməliyyatlarına effektiv nəzarətin həyata keçirilməsi məqsədilə "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda 06 iyul 2023-cü il tarixində qəbul edilmiş dəyişikliklərə əsasən Mərkəzi Bank tərəfindən 2023-cü il 11 dekabr tarixində "Valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən valyuta mübadiləsi əməliyyatlarının aparılması və valyuta mübadiləsi fəaliyyətinə nəzarət Qaydası" təsdiq edilmişdir. Qaydada valyuta mübadiləsi məntəqələrinin fəaliyyətinə dair kapital tələbləri, onların apardıqları valyuta mübadiləsi əməliyyatlarının yuxarı həddi müəyyən edilmiş, habelə girov vəsaiti ilə bağlı tənzimləmə təkmilləşdirilmişdir. Qanuna qəbul edilən dəyişikliklər isə ümumilikdə valyuta məntəqələrinin fəaliyyətinin institusionallaşdırılması (müstəsna fəaliyyət kimi müəyyən olunmuş) və onların kapitallarının şəffaflığının artırılması üçün hüquqi baza yaratmışdır. (Mühüm iştirak pay sahiblərinə, benefisiar mülkiyyətçilərə dair tələblər müəyyən edilmişdir.)

Valyuta rejiminə dair tənzimlənməni yuxarıda göstərilən məqsədlər çərçivəsində təkmilləşdirmək məqsədilə 26 iyul 2023-cü il tarixində Mərkəzi Bankın 2016-cı il 28 noyabr tarixli 45/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması Qaydaları"nda bir sıra dəyişikliklər qəbul edilmişdir. Dəyişikliklərə əsasən fiziki şəxslərin şəxsi məqsədlər üçün ölkə xaricinə köçürdükləri məbləğlər üzrə gündəlik limitlər ləğv edilmiş, köçürmə formasından (hesab açmadan və ya hesab vasitəsilə) asılı olmayaraq 20000 (iyirmi min) ABŞ dolları ekvivalentinədək aylıq limit müəyyən edilmiş, idxal olunan mallar üzrə köçürmələr zamanı sənədləşmə prosesi sadələşdirilmiş, ticarət vasitəçiliyi əməliyyatlarında vasitəçi tərəfindən əvvəlcədən köçürmə qaydasında satıcıya bank qarantiyası və ya akkreditiv əsasında 180 günədək avans ödənişinin həyata keçirilməsi imkanı müəyyən edilmiş, habelə cari tənzimlənmədən irəli gələn problemləri nəzərə alaraq hava, su, dəmiryol və kosmik obyektlər üzrə avans ödənişlərinə dair xüsusi rejim nəzərdə tutulmuşdur. Qeyd olunanlarla yanaşı, Qaydalarda Azərbaycan Respublikasının ərazisində emissiya olunmuş ödəniş kartları vasitəsilə rezident fiziki şəxslər tərəfindən ölkə hüdudlarından kənarda nağdlaşdırma limiti (təqvim ayı ərzində 10000 (on min) ABŞ dolları ekvivalentinədək məbləğdə) müəyyən edilmişdir.

Bununla yanaşı, valyuta nəzarətinin effektivliyini artırmaq məqsədilə "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Mərkəzi Bankın İdarə Heyətinin 20 dekabr 2023-cü il tarixli 62/1 nömrəli qərarı ilə "Valyuta əməliyyatları barədə vahid informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilmişdir. Əsasnamə valyuta nəzarətinin həyata keçirilməsi məqsədilə rezident və qeyri-rezidentlərin apardıqları valyuta əməliyyatları barədə vahid informasiya sisteminin formalaşdırılması, aparılması və ondan istifadənin hüquqi, təşkilati və texnoloji əsaslarını, habelə

informasiya sisteminə təqdim edilən məlumatların növünü müəyyən edir. İnformasiya sisteminin tələblərə adaptasiya ehtiyaclarını nəzərə alaraq Mərkəzi Bankın qərarına əsasən informasiya sisteminə valyuta mübadiləsi əməliyyatları barədə məlumatların 2024-cü il 1 mart tarixindən, Azərbaycan Respublikasından kənara xarici valyutanın köçürülməsi əməliyyatları barədə məlumatların isə 2024-cü il 1 iyul tarixindən təqdim edilməsi müəyyənləşdirilmişdir.

### 2.10. Əmanətlərin sığortalanması sahəsində nəzarət sisteminin fəaliyyətinin təmin edilməsi

Hesabat ilində Mərkəzi Bank əmanətlərin sığortalanması sahəsində nəzarət sisteminin fəaliyyətinin təmin edilməsi istiqamətində fəaliyyətini davam etdirmişdir. Əsas məqsəd nəzarət subyektləri ilə bağlı rezolyusiya tədbirlərinin planlaşdırılması, onun təşkili, habelə ləğv prosesində olan nəzarət subyektlərinin ləğvedicilərinin (ləğvetmə komissiyalarının, əmlak inzibatçılarının) fəaliyyətinə nəzarət tədbirlərinin həyata keçirilməsindən ibarət olmuşdur.

Bununla yanaşı iştirakçı bankların Əmanətlərin Sığortalanması Fonduna ödədiyi sığorta haqlarının iştirakçı banklara münasibətdə risk əsaslı çərçivədə hesablanması və yığılması üzrə layihə hazırlanmış və hazırda müzakirə mərhələsindədir.

2023-cü ildə müflis elan olunmuş “Günay Bank” ASC və “Muğan Bank” ASC-nin qorunan əmanətçiləri üzrə əmanət sahiblərinə vəsaitlərinin müvafiq olaraq 97% və 92%-i qaytarılmışdır. 31.12.2023-cü il tarixinə ləğv prosesində olan “Günay Bank” ASC üzrə 2176 nəfər əmanətçiyə 34.2 mln. manat, ləğv prosesində olan “Muğan Bank” ASC üzrə isə 6405 nəfər əmanətçiyə 187.5 mln. manat məbləğində kompensasiya ödənilmişdir.

## 3. Mərkəzi Bankın fəaliyyətinin maliyyə nəticələri

Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən Mərkəzi Bankın 31 dekabr 2023-cü il tarixinə gəlirləri 748.3 mln. manat təşkil etmişdir. Gəlirlərin 572.1 mln. manatı valyuta aktivlərinin idarə edilməsi üzrə faiz, yenidən qiymətləndirmə və konvertasiya gəlirlərindən, 34.4 mln. manatı daxili bazarda əldə edilmiş qiymətli kağızlar üzrə faiz gəlirlərindən, 2.1 mln. manatı mərkəzləşdirilmiş kredit resursları üzrə faiz gəlirlərindən, 24.1 mln. manatı müştərilərə göstərilən xidmətlər üzrə gəlirlərdən ibarət olmuşdur. Həmçinin 47.9 mln. manatı maliyyə öhdəliklərinin (Azərbaycan Beynəlxalq Bank ASC-dən (ABB) cəlb olunmuş depozitin) ədalətli dəyərdə ilkin tanınması üzrə gəlirlər, 14.2 mln. manatı maliyyə aktivlərinin (Əmanətlərin Sığortalanması Fonduna verilmiş kredit) amortizasiyası və 3.0 mln. manatı həmin aktivlərin ədalətli dəyərinin dəyişiklikləri üzrə gəlirlər, 0.6 mln. manatı isə daxili bazarda törəmə maliyyə alətləri üzrə gəlirlər yaratmışdır. Əlavə olaraq 1.1 mln. manatı xatirə və investisiya pul nişanlarının satışı və s. üzrə gəlirlərdən ibarət olmuşdur. Valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə mühasibat gəliri 48.8 mln. manat təşkil etmişdir.

Hesabat dövründə Mərkəzi Bankın xərcləri bütövlükdə 399.0 mln. manat təşkil etmişdir ki, bu xərclərin 226.2 mln. manatı əməliyyat xərclərinin payına düşür. Əməliyyat xərcləri əsasən Mərkəzi Bankın həyata keçirdiyi sterilizasiya əməliyyatları nəticəsində yaranmış xərclərdən, o cümlədən 109.3

mln. manatı banklardan cəlb edilmiş depozitlər üzrə, 96.6 mln. manatı AMB-nin notları üzrə, 0.3 mln. manatı isə banklarla repo əməliyyatları üzrə faiz xərclərindən ibarət olmuşdur. Bundan əlavə, əməliyyat xərclərinin 2.1 mln. manatını xarici maliyyə bazarlarında əməliyyatlar üzrə komissiya xərcləri, 2.5 mln. manatını Azərbaycan Dövlət Neft Fondu və Əmanətlərin Sığortalanması Fondu üzrə faiz xərcləri, 0.6 mln. manatını Beynəlxalq Valyuta Fondu üzrə xalis faiz xərcləri, 1.2 mln. manatını nağd xarici valyutanın gətirilməsi xərcləri, 13.6 mln. manatını isə kağız və metal pulların (o cümlədən yubiley və xatirə pul nişanlarının) hazırlanması və nəqli üzrə xərclər təşkil etmişdir.

Əməliyyat xərcləri çıxıldıqdan sonra Mərkəzi Bankın xərclərinin 24.8 mln. manatı amortizasiya olunan kateqoriyasına aid maliyyə aktivləri üzrə yaradılmış ehtiyatlar və 0.8 mln. manatı qiymətli kağızların dəyərdən düşməsi üzrə xərclərdən, 5.0 mln. manatı xarici menecerin idarəetməsi çərçivəsində törəmə maliyyə alətləri üzrə yaranmış mühasibat zərərindən, 94.4 mln. manatı inzibati və digər ənənəvi xərclərdən, o cümlədən 43.5 mln. manatı işçilərin əmək haqqı və Dövlət Sosial Müdafiə Fonduna ayırmalar üzrə xərclərdən, 30.5 mln. manatı əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə köhnəlmə xərclərindən, 2.3 mln. manatı qeyri-maddi aktivlərin ləğvi ilə bağlı mühasibat zərərindən, 18.1 mln. manatı digər ənənəvi xərclərdən (proqram təminatı və serverlərin dəstəklənməsi, inzibati binanın saxlanma və mühafizə xərcləri, ezamiyyə və s. xərclər) ibarət olmuşdur.

Hesabat dövründə maliyyə öhdəliklərinin ABB-dən cəlb olunmuş depozit üzrə amortizasiya xərcləri 47.8 mln. manat təşkil etmişdir.

Beləliklə, 31 dekabr 2023-cü il tarixinə Mərkəzi Bankın maliyyə fəaliyyəti 349.3 mln. manat mənfəət ilə nəticələnmişdir.

Hesabat dövrünə Mərkəzi Bankın cəmi kapitalı 1547.9 mln. manat, o cümlədən ədalətli dəyərinin dəyişməsi sair məcmu gəlirə aid olunan qiymətli kağızların yenidən qiymətləndirilməsi üzrə 31.12.2023-cü il tarixinə toplanmış mühasibat gəliri 53.0 mln. manat  təşkil etmişdir.